ARTİ
AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

Kapital Bank

# RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

## Coğrafiya 10

**Ad**____________________ **Soyad**____________________

* İmtahan müddəti **180** dəqiqədir.
* **4 səhv** cavab **1 düz** cavabı aparır.
* Hər sual **4 bal** ilə qiymətləndirilir.
* Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
* Rayon (şəhər) mərhələsinin nəticələrini **www.portal.edu.az, www.olimpiada.edu.az** saytlarından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**UĞURLAR!**

**22.01.2022**

1. Miqyası 1: 15 000 000 olan xəritədə iki məntəqə arasındakı məsafə 48 sm-dir. Bu məsafə 60° paralel çevrəsinin 130°-lik qövsünün uzunluğuna bərabər olduğunu bilərək, təhrifin neçə km olduğunu hesablayın.

A) 94 B) 54 C) 128 D) 48 E) 17

2. Şimal yarımkürəsində yerləşən orta fırlanma sürəti 573 km/saat olan paralel çevrəsinin üzərində günəş şüalarının günorta vaxtı maksimum düşmə bucağı 45° olarsa, tropik xətləri hansı enliklərdən keçər?

A) 25 B) 35 C) 30 D) 20 E) 15

3. Günəş şüalarının minimum düşmə bucağının 43°-dən kiçik olduğu coğrafi enliklərdə yerləşən vulkanları müəyyən edin.

1. Montan-Pele 2. Reynir 3. Orisaba 4. Ruapexu

5. Pinatubo 6. Etna 7. Fudziyama 8. Kerinçi

A) 1,3,5,8 B) 2,4,6,7 C) 1,2,5,8 D) 2,5,7,8 E) 1,4,5,8

4.Dağların yerləşdiyi ərazilərə aid olan doğru fikirləri müəyyən edin.

| | | |
|---|---|---|
| 1. Karpat | 2. Ural | 3. Hinduquş |
| 4. Böyük Suayırıcı | 5. Çerski | 6. Alp |

a. Bütün dağların ətəyində günorta vaxtı şaquli cisimlərin kölgəsi il boyu şimal istiqaməti göstərir.

b. Bu dağlardan yalnız ikisi Paleozoy erasında yaranıb.

c. Bu dağların mütləq hündürlüyünün azalma sırası 3,1,6,5,4,2-dir.

d. Bu dağlardan birinin ən hündür zirvəsi Narodnaya zirvəsidir.

e. Bu dağlar içərisində ən hündür zirvəyə malik olan dağda fəaliyyətdə olan vulkanlar mövcuddur.

A) b,e B) a,c C) b,d D) d,e E) a,d

5. Aral gölünün səviyyəsinin kəskin dəyişməsinin əsas səbəblərini müəyyən edin.




1. Amur və İli çayı üzərində qurulan su bəndləri

2. Gölün yerləşdiyi ölkələrdə kənd təsərrüfatının inkişafı

3. Litosfer tavalarının hərəkəti

4. Bu göldən Türkmənistan ərazisinə çəkilmiş suvarma kanalı

5. Qaraqum suvarma kanalının fəaliyyətə başlaması

6. Sırdərya çayının suvarmada geniş istifadəsi

A) 2,4,5 B) 1,3,4 C) 2,3,5 D) 1,4,6 E) 2,5,6

6. Sxemlərə əsasən düzgün olan fikirləri müəyyən edin.




1. IV sxemdəki vəziyyət bütün yarımkürələrdə müşahidə edilə bilər.

2. III sxemdəki vəziyyət ABŞ-ın cənub şərqində müşahidə edilə bilər.

3. I və III sxemdəki vəziyyətlər eyni yarımkürədə müşahidə edilə bilər.

4. II və IV sxemdəki vəziyyətdə enən hava müşahidə olunur.

5. I və III sxemdəki vəziyyətin müşahidə edildiyi yarımkürədə bütün küləklər sağa meyil edir.

6. III və IV sxemdəki vəziyyətin müşahidə olunduğu ərazilərdə çayların səviyyəsinin azalacağını proqnozlaşdırmaq mümkündür.

A) 1,2,4 B) 1,4,5 C) 3,5,6 D) 2,3,5 E) 1,2,3

7. Vettern və Boloton gölləri və onların yerləşdiyi ölkələr üçün oxşar ***olmayan*** fikirləri müəyyən edin.

1. Materikdaxili ölkədir.

2. Rəsmi dövlət dili Hind-Avropa dil ailəsinə mənsubdur.

3. Yerləşdiyi qitənin ərazisi üç yarımkürədədir.

4. Ərazisindən Dunay çayı keçir.

5. Mülayim iqlim qurşağında yerləşir

6. Rusiya Federasiyası ilə həmsərhəd deyil.

A) 1,2,6 B) 1,3,4 C) 2,4,5 D) 1,2,4 E) 3,5,6

8. Şəkildə göstərilən Vasyuqan bataqlığının yerləşdiyi ölkəni müəyyən edin.



A) Rusiya Federasiyası

B) Estoniya

C) Finlandiya

D) Konqo DR

E) ABŞ

9. Ruis vulkanının yerləşdiyi ölkəyə aid olan xüsusiyyətləri müəyyən edin.

1. Unitar respublikadır.

2. Sahillərini iki okean suları yuyur.

3. Ərazisində Marakaybo gölü yerləşir.

4. Aid olduğu materikin ən ucqar nöqtəsi ərazisində yerləşir.

5. Ərazisində yerləşən dağ silsiləsində yalnız sönmüş vulkanlar mövcuddur.

6. Ərazisi iki materik tipli litosfer tavasının konvergent sərhədində yerləşir.

A) 1, 2, 4    B) 2, 4, 6    C) 3, 4, 5    D) 2, 3, 6    E) 1, 3, 5

10. Şəlalələrin yerləşdiyi ölkələri müəyyən edin.

1. Niaqara ----------- ABŞ və Kanada

2. İquasu --------- Braziliya və Argentina

3. Stenli (Boyoma) ---------- Uqanda

4. Tugela -------- Cənubi Afrika Respublikası

5. Livinqston ----- Mərkəzi Afrika Respublikası

6. Viktoriya ------- Keniya və Tanzaniya

A) 1,4,5    B) 2,3,6    C) 1,2,4    D) 2,3,5    E) 2,5,6

11. Adaları ölkələrə görə qruplaşdırın.

1. Müqəddəs Yelena ------ Böyük Britaniya

2. Aleut ---------- Kanada

3. Korsika --------- Fransa

4. Sokotra ------ Yəmən

5. Elsmir ------- ABŞ

6. Fici -------- Yeni Zelandiya

A) 4,5,6 B) 1,3,4 C) 2,4,5 D) 2,5,6 E) 3,5,6

12. Baltik və Qara dənizlər üçün ***fərqli*** cəhət:

A) Bir neçə ölkənin sahillərini yuyur.

B) Ən dərin nöqtəsi 1000 m-dən azdır.

C) Rusiya Federasiyasının sahillərini yuyur.

D) Şərqi Avropa düzənliyindən başlayan çaylar üçün eroziya bazisidir.

E) Gəmiçilik kanalları vasitəsilə Xəzər dənizinə çıxışı mövcuddur.

13. Axarsız gölləri müəyyən edin.

A) Eyr, Ontario

B) Qarda, Boden

C) Titikaka, Tanqanika

D) Rudolf, Atabaska

E) Elton, Baskunçak

14. Verilmiş xəritə nəyi ifadə edir?




A) Albedonun illik kəmiyyətini
B) İllik buxarlanma qabiliyyətinin miqdarını
C) İllik radiasiya balansını
D) İllik yağıntının miqdarını
E) Atmosfer təzyiqinin illik kəmiyyətini

15. Cədvələ əsasən doğru ***olmayan*** bəndi seçin.

| **S/S** | **Çayın adı** | **Çayın mənsəbinin yerləşdiyi hövzə** | **Mənsəbinin yerləşdiyi ölkə** |
|---|---|---|---|
| 1 | Po | Adriatik dənizi | İtaliya |
| 2 | Yukon | Bofort dənizi | Kanada |
| 3 | İravadi | Siam körfəzi | Myanma |
| 4 | İli | Balxaş gölü | Qazaxıstan |
| 5 | Dəclə | Ərəbistan dənizi | İraq |
| 6 | Rona | Aralıq dənizi | Fransa |

A) 1, 3, 5 B) 2, 3, 5 C) 3, 5, 6 D) 2, 4, 6 E) 2, 4, 5

16. Ərazisindən axan çayların iki okean hövzəsinə aid olan adaları seçin.

A) Kalimantan, Folklend, Luson

B) Sulavesi, Seyşel, Andaman

C) Tonqa, Yeni Qvineya, Azor

D) Yava, Sumatra, Tasmaniya

E) Yamayka, Mindanao, Tayvan

17. Doğru ***olmayan*** bəndi müəyyən edin.

1. Zod, Narzanlı, Gilgəzçay və Levçay faydalı qazıntı yataqlarının yerləşdiyi inzibati rayonlar son müharibədə işğaldan yeni azad olunmuşdur.

2. Ölkəmizin yerləşdiyi istilik qurşağının şimal sərhədi orta illik temperaturu göstərən izotermlə müəyyən edilir.

3. Ağsuçay, Köndələnçay və Qarqarçayın qidalanmasında yeraltı sular üstünlük təşkil edir.

4. Ceyrançöl Kür və Qabırrı çaylarının arasında yerləşir.

5. Respublikamızda maksimal yağıntı miqdarı, maksimal buxarlanma qabiliyyətindən kiçikdir.

A) 3,4,5 B) 1,2,3 C) 2,3,5 D) 2,4,5 E) 1,2,5

18.Respublikamızın üzv ***olmadığı*** beynəlxalq təşkilat:

A) BMT B) GUAM C) MDB D) QDİƏT E) OPEK

19.Eyler-Venn diaqramına əsasən, aşağıdakı ölkələrin oxşar və fərqli cəhətlərini müəyyən edin.




1. Boliviya ilə həmsərhəddir.

2. Federativ respublikadır.

3. Paytaxtı okean sahilində yerləşir.

4. Amazon çayı ərazisindən axır.

A) I – 1,3;  II – 2; III – 4

B) I – 1;  II – 2,3; III – 4

C) I – 3;  II – 2; III – 1,4

D) I – 3;  II – 4; III – 1,2

E) I – 4;  II – 1; III – 2,3

20. Super-Pit mədənindən çıxarılan faydalı qazıntının şərti işarəsini və onun Azərbaycanda mövcud olduğu inzibati rayonu müəyyən edin.

A)  – Göygöl

B)  – Gədəbəy

C)  – Daşkəsən

D)  – Kəlbəcər

E)  – Şərur

21. Xocavənd  inzibati rayonunda şəhər tipli qəsəbə:

A) Əsgəran  B) Hadrut  C) Mincivan  D) Kərkicahan  E) Turşsu

22. Avstraliya materikinə aid olan xüsusiyyətləri müəyyən edin.

1. Qərb hissəsi qədim platforma,şərq hissəsi isə, qədim qırışıqlıq zonadır.

2. Ən alçaq nöqtəsinin yerləşdiyi ərazi mülayim işıqlanma qurşağına uyğun gəlir.

3. Mak-Donnel dağları Barkli platosundan daha şimalda yerləşir.

4. Materik ərazisinin yarıdan çoxu yüksək təzyiq zonasında yerləşir

5. Ən yüksək temperatur Darlinq çayının yuxarı axarında müşahidə edilir.

6. Daxili suların hövzələr üzrə paylanmasında ən az pay Hind okeanına aiddir.

A) 1,2,4  B) 2,4,6  C) 1,3,5  D) 2,3,6  E) 1,2,6

23. Araz çayının suyu ilə qidalanan suvarma kanallarını müəyyən edin.

1. Baş Mil

2. Yuxarı Qarabağ

3. Baş Muğan

4. Əzizbəyov adına kanal

5. Samur-Abşeron

6. Yuxarı Şirvan

A) 1,2,5 B) 2,4,6 C) 1,2,3 D) 3,4,6 E) 1,3,4

24. Xəritə-sxemdə göstərilən türk dövlət qurumlarından Başkordıstan, Tıva, Kabarda-Balkar və Çuvaşiya hansı rəqəmlərlə göstərilib?




A) 2,3,1,6 B) 5,6,8,4 C) 5,1,9,7 D) 6,3,7,9 E) 1,5,7,8

25. Uyğunluğu müəyyən edin.

I. Doğum göstəricilərinin azaldılması

II. Doğum göstəricilərinin artırılması

1. Körpələrin uşaq müəssisələrinə cəlb edilməsi

2. Nikah yaşının artırılması

3. Müavinətlərin verilməsi

4. Ali təhsil müəssəsində təhsil alanların ailə qurmasının qarşısının alınması

5. Uzunmüddətli ödənişli analıq məzuniyyətinin verilməsi

6. Tibbi xidmət və təhsil ödənişlərinin vətəndaşların öz hesabına olması

A) I – 1,3,5;  II – 2,4,6

B) I – 4,5,6;  II – 1,2,3

C) I – 2,4,5;  II – 1,3,6

D) I – 1,2,5;  II – 3,4,6

E) I – 2,4,6;  II – 1,3,5